**Onun səsi yalnız notları deyil, qəlbləri də titrədirdi. O, səhnəyə çıxanda zaman dururdu, bütün zal bir nəfəsə qulaq asar, insanlar onun avazı ilə ruhlanardılar. Adı Murtuza idi, amma xalq onu Bülbül kimi tanıdı, çünki o, elə bülbül kimi cəhcəh vururdu, saf, təmiz, məlahətli səsi ilə... 1897-ci ilin yazında Şuşada bir nəfər dünyaya göz açdı - Murtuza Məşədi Rza oğlu Məmmədov. İllər keçəcək, Azərbaycan musiqisinin zirvəsinə çevriləcəkdi. Onun uşaqlıqda səsi məhəllədə eşidiləndə hər kəs deyərdi: "Bu uşaq bülbül kimi oxuyur!", bununla da təxəllüs yarandı, tale yazıldı. Uşaq yaşlarından musiqiyə maraq göstərən Murtuza Qarabağın zəngin muğam və aşıq mühitində formalaşmışdı.**

# Şuşadan dünyaya yayılan BÜLBÜL avazı



1920-ci illərdə o, Bakı Musiqi Məktəbində təhsil aldı, sonra isə vokal sənətinin beşiyi olan İtaliyanın Milan şəhərində məşhur La Skala opera teatrında təcrübə keçdi. İtaliya klassik vokal məktəbinin qaydalarını öyrənən Bülbül qərbin klassikasını əks edərkən, doğma Şur muğamını, Qarabağ havasını unutmadı və Azərbaycan muğamları ilə Avropa vokal musiqisini sintez edərək yeni vokal məktəbi yaratdı. Bülbül musiqiyə sadəcə könül vermədi, onu elmlə, fədakarlıqla yoğurdu. Qarabağdan çıxıb dünya səhnələrinə gedən yol asan olmadı, lakin o, musiqiyə olan sevgisini daim qəlbində yaşatdı. 1920-1930-cu illərdə o, Üzeyir Hacıbəyli ilə sıx əməkdaşlıq edir, "Koroğlu" operasında Koroğlu rolunu ifa etməklə Azərbaycan musiqisində əfsanəvi obraz yaradır. O, bu rolu sadəcə səsləndirmədi, sanki onu mənən yaşadı. Tamaşaçı Bülbülün səsində Koroğlunun qəzəbini, eşqini, qürurunu hiss etdi. Həmin rolun ifasında notlarla bərabər xalqın ruhu da canlanırdı. Bülbül üçün səhnə nə qədər müqəddəs olsa da, dərs otağı bir o qədər əziz idi. Onun yetişdirdiyi tələbələr Azərbaycan səhnəsində parlayıblar. Bülbül yalnız səs texnikasını yox, həm də sənətkar məsuliyyətini öyrədirdi. "Oxumaq - Allaha dua etmək kimidir. Onu səmimiyyətlə etməlisən", - deyə tələbələrə stimul verərdi. Bülbül musiqi nəzəriyyəçisi və pedaqoqu idi. O, vokal sənəti ilə bağlı dərsliklər yazır, Azərbaycan muğamlarının nota salınması və tədris olunmasında mühüm rol oynayırdı. Onun elmi irsi bu gün də aktualdır və yeni nəsil sənətkarlar üçün örnəkdir. Bülbül həm muğamları, həm də klassik Avropa ariyalarını ifa etməklə Azərbaycan vokal sənətinin sərhədlərini



genişləndirib. Xüsusilə "Şur", "Rast", "Bayatı-Şiraz" muğamlarının ifasında onun texniki ustalığı və emosionallığı sənətşünaslar tərəfindən yüksək qiymətləndirilib. Bülbül bir çox yüksək mükafatlara layiq görülüb: SSRİ xalq artisti (1936), "Lenin" ordeni, müxtəlif dövrlərdə musiqi və mədəniyyət sahəsində göstərdiyi xidmətlərə görə fəxri fərman və medallarla təltif olunub. Onun haqqında yazılanlar, çəkilən filmlər, oxunan mahnılar bir həqiqəti sübut edir: Bülbül zamanın fövqündə dayanıb. Bülbül Azərbaycan mədəniyyətinin göz bəbəyi, musiqimizin elmi sütunu, ifaçılıq məktəbinin banilərindən idi. Azərbaycan musiqisinin zirvəsində olan Bülbül xalqın ruhunu səsində daşıyan şəxsiyyət idi. Onun yaratdığı musiqi məktəbi, vokal mədəniyyəti və elmi irsi nəinki ölkə miqyasında, eləcə də beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Bu dahi sənətkarın yaradıcılığına ən yüksək qiyməti isə ümummilli lider Heydər Əliyev verərək qeyd edib ki, Bülbül Azərbaycan musiqisinin formalaşmasında və dünyaya tanıdılmasında müstəsna rol oynamış sənətkarlardandır. Ulu Öndər deyirdi: "Bülbül musiqimizə yeni nəfəs verdi. O, milli musiqimizi klassik Avropa məktəbi ilə birləşdirərək elə bir yol açdı ki, bu yol hələ də sənətkar nəsillərinə işıq tutur". Bülbülün sənətkarlığına verilən bu qiymət sadəcə təqdir deyil, mədəni irsin qəbul olunmasıdır. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Bülbülün xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir çox işlər görülüb. Onun evinin muzeyə çevrilməsi, adının musiqi məktəbinə verilməsi, xatirə gecələrinin keçirilməsi və elmi irsinin tədqiqi Ulu Öndərin mədəniyyətə, Bülbül şəxsiyyətinə olan sonsuz ehtiramın sübutudur. 2001-ci ildə Bülbülün 100 illik yubileyi qeyd olunarkən Heydər Əliyev deyib: "Bülbül kimi sənətkarlar əsrlərdə bir dəfə yetişir. Onun adı Azərbaycan mədəniyyətinin tarixinə qızıl hərflərlə yazılıb. Biz onun sənətini və xidmətlərini heç vaxt unutmamalıyıq". Bülbül müğənni, Azərbaycanın mədəni portretini yaradan nadir şəxsiyyətlərdən biri idi. O, bizim milli fəxrimizdir, bir zirvə, bir məktəb, bir missiyadır. Onu ilk dəfə görənlər heyrətlənirdi: səliqəli geyim, dərin baxışlar və üzündə daim düşüncəli bir ifadə olardı. Nə vaxtsa dilə gəlsə, məlahətli, aydın və birbaşa qəlbə toxunan səsi ilə məkanı silkələyirdi. Bəstəkar Qara Qarayev ifaçı barəsində deyirdi: "Bülbülü dinləyəndə anlayırdım ki, musiqi sadəcə texnika deyil, duyğudur. O, notların arxasında gizlənən insan hissini bizə çatdırırdı. Bülbül oxuyanda sanki Azərbaycan torpağının özü nəfəs alırdı". Dahi Uzeyir Hacıbəyli onun haqqında yazmışdı: "Bülbül klassik musiqi ilə xalq musiqisini birləşdirən körpüdür. Onun səsində həm Qərbin nizamı, həm Şərqin ürək titrədən ahəngi var". Bəstəkar Fikrət Əmirovun xatirələrindən: "Bülbül səhnədə görünəndə, tamaşaçılar sanki nəfəsini saxlayırdı. Bu, çox az sənətkara qismət olan bir haldır. O, səhnəni səsi, nəfəsi, varlığı ilə işıqlandırırdı".

Bülbül 1961-ci ildə Bakıda vəfat edib. Lakin onun yaratdığı vokal məktəbi və sənətkarlığı bu gün də yaşayır. Bakıda onun adını daşıyan Bülbül adına Orta ixtisas musiqi məktəbi, Bülbül muzeyi və büstləri onun əziz xatirəsini yaşadır. Şuşanın dar küçələrindən keçərək, qədim dövrün nəfəsini daşıyan bir evin qapısına yaxınlaşırsan. Bu, Azərbaycan musiqisinin əfsanəsi, xalqımızın sevimlisi - Bülbülün doğulduğu evdir. Bu evin divarlarına toxunanda zaman donur. Bülbülün ev-muzeyi bir zamanlar əllə toxunulmuş xalçalar, əl yazısı ilə dolu not dəftərləri və qədim musiqi alətləri ilə zənginləşdirilib. Burada nümayiş olunan hər eksponat, konservatoriyadan aldığı diplom, ilk konsert afişaları, hətta uşaqlıq fotosu belə onun həyatından bir parçadır və ziyarətçinin qəlbinə toxunur.

Zaman keçdi, amma Bülbülün səsi susmadı. Onun sənəti bu torpaqlarda yenidən dirçəldi. Şuşa azad edildən sonra, bu ev də yenidən canlandı. Restavrasiya edilən muzey indi parlaq bir tarix məbədi kimi yenidən qapılarını ziyarətçilərə açıb. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi açılış mərasimi təkcə bir muzeyin deyil, bütöv bir mədəniyyətin dirçəlişi oldu. Bu gün Bülbülün evinə qədəm qoyan hər bir şəxs sanki onun səsini eşidir. O səs təbiətin səsi ilə vəhdət təşkil edir.

Bülbül Azərbaycan musiqisinin təkcə səsi deyil, həm də ruhudur. Onun yaradıcılığı milli kimliyimizin musiqi ifadəsidir. Həm sənətkar, həm də alim kimi fəaliyyəti ilə o, musiqi tariximizin zirvəsində dayanır və gələcək nəsillərə örnək olaraq yaşayır.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika.- 2025.- 22 iyun (№127).- S.14.